# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 310 nömrəli Qərarı ilə təsdiq edilmiş "Enerji menecment sisteminə dair Tələblər"də və 2023-cü il 18 aprel tarixli 123 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi istehsalı və təbii qazın emalı üzrə effektivlik potensialının qiymətləndirilməsi qaydası və qiymətləndirmə meyarları"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 582 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 310 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 997 (Cild I); 2024, № 1, maddə 105) ilə təsdiq edilmiş "Enerji menecment sisteminə dair Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.4-cü bəndə "məlumatı" sözündən sonra "enerji effektivliyi informasiya sistemi (bundan sonra – EEİS) vasitəsilə" sözləri əlavə edilsin;

1.2. 3.7.9-cu yarımbəndə "qədər" sözündən sonra "EEİS vasitəsilə" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 aprel tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 4, maddə 594 (Cild I) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi istehsalı və təbii qazın emalı üzrə effektivlik potensialının qiymətləndirilməsi qaydası və qiymətləndirmə meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bəndə (birinci halda) "qiymətləndirilməsi" sözündən sonra "enerji effektivliyi informasiya sistemi (bundan sonra – EEİS) vasitəsilə" sözləri əlavə edilsin;

2.2. 2.3-cü bənddə “yazılı və ya elektron qaydada” sözləri “EEİS vasitəsilə” sözləri ilə əvəz edilsin;

2.3. 2.4-cü və 2.5-ci bəndlərə “rəsmiləşdirilir” sözündən sonra “və qəbul edildiyi tarixdən 5 (beş) iş günü müddətində qərarın surəti həmin təsərrüfat subyektinin EEİS-dəki elektron kabinetində yerləşdirilir” sözləri əlavə edilsin;

2.4. 2.7-ci bəndin birinci cümləsinə və 5.2-ci bəndə “tərəfindən” sözündən sonra “EEİS vasitəsilə” sözləri əlavə edilsin;

2.5. 5.1-ci bəndə “edir” sözündən sonra “və 5 (beş) iş günü müddətində həmin təsərrüfat subyektinin EEİS-dəki elektron kabinetində yerləşdirir” sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 23 ” “ iyul ” 2026-cı il

№ 232